*Zakir Bagir*

# *Ziyarət*



*(Hekayə)*

*O, bir-bir otaqların qapısına baxa-baxa keçirdi.*
*- Sizə nə lazımdır?*
*- Müdürü axtarıram.*
*- Nə edirsiniz müdürü?*
*- İş axtarıram. Eşitdim idarədə iş var.*
*- Müdürün otağı budur- Katibə barmağı ilə otağı göstərdi- indi onun yanında adam var...*
*- Gözləyərəm.*
*Katibə onun üçün çay süzdü:*
*- Çayınızı için...*
*- Çox sağolun.*
*O, çayı təzəcə içmişdi ki, kimsə kabinetdən çıxdı. Katibə müdürün yanına girdi. Tezcə otaqdan çıxdı.*
*- Girin kabinetə. Müdür sizi gözləyir.*
*O, qapını döydü:*
*- Gəlin.*
*İçəri girdi.*
*- Nə qulluğunuz?*
*- İş axtarıram.*
*- Əvvəllər işləmisiniz?*
*- Bəli işləmişəm.*
*- Filan idarədə muafizəçi işləmişəm. O, sənədlərini müdürə göstərdi.*
*- İşlədiyim idarəni başqa rayona köçürtdülər. Bizdən yüz-yüzəlli kilometr uzağa. Gedib-gəlməyə imkanım olmadığına görə işdən çıxmalı oldum.*
*- Bilirsən, iş üçün bizə müraciət edənlər çoxdur. Yaxşı adama oxşuyursan. Üç gündən sonra gələrsən.*
*Gənc üç barmağını göstərdi.*
*O, ayağa qalxdı.*
*- Sənədlərini də götür.*
*... Üç gündən sonra idarəyə gəldi.*
*- Müdür yerindədir?*
*- Yox, bu gün olmayacaq.*
*- Axı mənə demişdi: "Üç gündən sonra gəl".*
*- Get köməkçinin yanına.*
*Katibə barmağı ilə yan otağı göstərdi.*
*Qapını döydü.*
*- Gəlin.*
*İçəri girdi.*
*- Əziz Talıbov oturun.*
*- " Görəsən ad- familiyamı haradan öyrənib? Biz ki, tanış deyilik. "*
*- Bizə iş üçün müraciət edənlər çoxdur. Müdürümüz sənə üç gün deyib...*
*O, şkafın siyirməsini açdı. Özüdə ayağa durdu, pəncərədən çölə baxdı. Dəqiqələr keçirdi... Çevrilib arxaya baxanda onun yerindən tərpənmədiyini gördü.*
*- Əzim gedə bilərsən.*
*- Sənədlərim qalsın?*
*Köməkçi hirslə:*
*- Əlbəttə götür. -dedi.*
*O, otağdan çıxanda katibə soruşdu:*
*- İşin düzəldi?*
*- Yox.*
*" Bu nə dilbilməz adamdır "*
*Üç gün keçəndən sonra Əzim yenə də idarəyə gəldi.*
*- Müdür yerindədir?*
*Katibə hirslə:*
*- Yoxdur. Bu gün olmayacaq.*
*- Bəs köməkçisi?*
*- Köməkçisinin işi başından aşır. Səni qəbul etməyə vaxtı yoxdur.*
*Təəssüfləndi: həmişə onu mehribanlıqla qarşılayan katibə niyə onu hirsli qarşılayır. Siz əvəzinə sən deyir.*
*Katibə yenə hirslə bildirdi:*
*- Bəsdir, camaatı işindən gücündən ayırdın.*
*... Həyətin qapısı açıq idi. Həyətdə çadır qurulmuşdu. Müdür ziyarətə gedəcəkdi. Ona görə ehsan verdi. Küçədə xeyli maşın vardı. İdarə müdürlərinin maşınları idi.*
*- Lap yaxşı oldu. Həm ehsan yeyərəm. Həm də işlə bağlı söhbət edərəm.*
*Çadıra girdi. Müdür onu görəndə tərs-tərs onu süzdü. Sonra köməkçinin qulağına nə isə pıçıldadı.*
*Köməkçi:*
*- Oldu, deyib xidmətçilərin birqadirinə sözünü dedi.*
*Xidmətçilərin birqadiri Əzimə yaxınlaşdı. O, da məclisdən çıxdı.*
*Mərkəzdən rayona komissiya gəlmişdi. İdarədə yoxlama keçirdi. Bir sıra ?????? ortaya çıxdı. Demə müdür heç kimi pulsuz işə götürmürmüş.*
*Əzim barmağını dişlədi. Demə müdür " Üç gün sonra gələrsən " deməklə ondan pul istəyirmiş. Pul vermədiyim üçün məni işə götürməyib.*
*Gör necə avam olmuşam.*

ədalət.- 2021.- 13 aprel.- S.8.